**UOT 94**

# CƏNUBİ AZƏRBAYCANDA SOYQIRIM TÖRƏDƏN BİRLƏŞMİŞ ERMƏNİ-AYSOR SİLAHLI DƏSTƏLƏRİNİN TƏŞKİLİ ŞAHİD QEYDLƏRİNDƏ

**Həsən SƏFƏRİ***

***Açar sözlər:*** *Urmiya, ermənilər, soyqırımı, missioner təşkilatlar.*

## Giriş

Cənubi Azərbaycanın qərb bölgəsi azərbaycanlıların ərazisi olduğu üçün burada yaşayan əhalinin böyük əksəriyyəti də azərbaycanlılardan ibarət idi. Yalnız az sayda erməni müəyyən dövrlərdə Azərbaycana köçüb və dağınıq şəkildə Azərbaycanın qərb bölgəsində yaşayırdı. Ona görə də onların Azərbaycanda dövlət qurması üçün şərait yox idi. Bu səbəbdən ermənilər bu bölgədə "Böyük Ermənistan"ın bir hissəsini yaratmaq məqsədilə yerli azərbaycanlıları soyqırımına məruz qoymaqdan başqa yol görmürdülər. Bunun üçün silahlı dəstələri yaratmağı qarşıya məqsəd qoymuşdular. Vaxtilə çar Rusiyası və Qərb dövlətləri tərəfindən də bu istiqamətdə təşkilatlandırılan ermənilər, xüsusilə çar Rusiyasında 1917-ci il oktyabr çevrilişindən sonra əvvəlcədən nəzərdə tutulmuş silahlı dəstənin yaradılması planını tezləşdirmək məcburiyyətində qaldılar. Planın icrasının tezləşdirilməsi səbəbi isə rus qoşunlarının Cənubi Azərbaycandan çıxması idi.

## I. Erməni və aysorlardan ibarət birləşmiş silahlı dəstəsinin yaradılması və onların silahlandırılması

Çar Rusiyasında 1917-ci il oktyabr çevrilişi baş verdikdən sonra Cənubi Azərbaycanda yerləşən Rusiya ordusunun hissələrində çaşqınlıq yarandı. Hətta Qafqazdakı rus əsgərləri də qaçmağa, cəbhəni özbaşına tərk etməyə başlamışdılar. 1917-ci il noyabrın axırında isə rus ordusunun dağılması və rus əsgərlərinin Qafqaz cəbhəsindən qaçması sürətləndi. Cəbhə çox sürətlə dağılırdı. (2, s.36) Sahibsiz qalan orduda qarışıqlıq baş verirdi və "1918-ci il mart ayının 3-də Sovet dövlətinin xarici məsələlərinə başçılıq edən Lev Davidoviç Trotski V.İ.Lenin tərəfindən Almaniya ilə sülh müqaviləsini imzaladı. Həmin müqavilədə Almaniya dövləti və Berlində yerləşən Seyid Həsən Təqizadənin rəhbərliyi altında fəaliyyət göstərən İran Komitəsinin təhriki ilə rusların və türklərin İranı tərk etməsinə dair maddə yerləşdirilmişdi" (10, s.456). Eləcə də, "həmin müqavilə imzalandıqdan sonra V.İ.Lenin 1918-ci il yanvarın 24-də 1915-ci il müqaviləsini (İranın Rusiya və İngiltərə tərəfindən şimal-cənub hissələrə bölünməsi) ləğv etdi. Rus qoşunlarının Azərbaycanı (Cənubi Azərbaycanı – *H.S.*) boşaltması sürətləndi (10, s.456).

Beləliklə, Rusiya ordusunun əksər hissəsi Urmiya və Cənubi Azərbaycandan çıxmağa məcbur oldu. Lakin onlar bu vaxta qədər ermənilər və aysorları bu vəziyyət üçün hazırlamışdılar. İstanbuldakı səfir M.Girsə ünvanlanan teleqramından bunu aydın şəkildə başa düşmək mümkündür. "№298, III Siyasi şöbənin məsləhətçisi İstanbuldakı səfir M.Girsə, Teleqram №2851, 23/10 sentyabr 1914-cü il, Ali Baş Komandan və Qafqaz canişini ilə razılığa əsasən, Türkiyə ilə müharibə olacağı təqdirdə ermənilərin, aysorların və kürdlərin üsyanını vaxtında hazırlamaq qəbul edilmişdir. Dəstələr Azərbaycandakı (Güney Azərbaycan nəzərdə tutulur – *M.Q.*) bizim konsulların və bizim oradakı dəstə rəislərinin nəzarəti altında İran administrasiyasından tamamilə gizlindir. Tüfənglər hazırlanmışdır, lakin onlar yalnız lazım olduqda veriləcəkdir. Pulla maliyyələşdirməkdən ötrü kredit də vardır. Dəstələr fəal hərəkətə yalnız bizim icazəmizlə başlayacaqlar (1, s.13). Ümumiyyətlə illər öncədən erməni və aysorlardan ibarət xristian dəstəsinin yaradılması planlaşdırılırdı. Belə ki, "2 yanvar 1916-cı ildə B.Marşimon 1915-ci ilin yayından idarəsinə çevirdiyi Salmasdakı iqamətgahında Tiflisdə rus komandanı olan Nikolay Qrandovdan Rusiya nümayəndələri ilə görüşmək

---

**Tarix üzrə fəlsəfə doktoru, AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*e-mail: hesenseferi@gmail.com*

üçün dəvət aldı. B.Marşimon bu təklifi qəbul edərək bir dəstə yoldaşı və tərcüməçi ilə birgə Culfa yolu ilə Tiflisə getdi. Bu səfər zamanı ruslar aysorlardan ibarət bir briqada yaratmağı təklif etdilər. Ruslar iki il qabaq kürdlərə də eyni təklifi etmişdilər. Onlar Xoy və Salmasda qoşunlarını möhkəmlətmək istəyirdilər. Bunu özlərinin yaratdıqları "erməni və aysor" birliyinin köməyi ilə yerinə yetirmək istəyirdilər. Marşimon bu təklifi qəbul etdi. Qərara alındı ki, lazım olan silah-sursat Qafqaz dəmir yolu vasitəsilə Tiflisdən Təbrizə və Vana göndərilsin. Bu xəbər 4 fevral 1916-cı ildə alman qəzeti "Frankurter zeitunq"da yayımlandı" (2, s.84).

Birləşmiş erməni-aysor silahlı dəstəsinin yaradılması üçün osmanlılarla olan müharibədən əvvəl pul da yığılmışdı. 1916-1918-ci illərdə osmanlılara qarşı 14 mindən çox ordu qüvvəsi toplandı. Bu qüvvələr daha sonra nizami orduya çevrildilər. 1917-ci il yayda rusların Şəmdinli ətrafında onlara verdikləri təlimdən sonra son dərəcə gücləndilər (9, s.34).

Digər tərəfdən isə İngiltərə və Fransa çar Rusiyasında qeyri-sabitliyi hiss edib qərara gəlmişdilər ki, İran və Qafqaz ermənilərindən, eləcə də aysorlardan ibarət silahlı dəstə yaradıb İngiltərə və Fransanın əlaltıları vasitəsilə idarə etsinlər (4, s.21). Buna görə də aysorların dini başçısı B.Marşimon və ermənilərin başçıları danışığa başladılar. Bununla bağlı ingilis və fransız sərkərdələri Culfa yolundan daxil olub Urmiyaya getdilər. ABŞ da həmin dövrdə onlarla əlbir hərəkət edirdi. Urmiyada məktəb, xəstəxana və s. mərkəzlər açan ABŞ missionerləri illər öncədən bölgə ilə tanış idilər, həmçinin İngiltərə və Fransa ilə əlbir idilər (9, s.34-35).

Artıq oktyabr çevrilişi regionda vəziyyəti dəyişdi. "Rusiyada qarışıqlıq yarandıqdan və rus ordusu Azərbaycandan çıxdıqdan sonra müttəfiq dövlətlər belə qərara gəldilər ki, osmanlılara qarşı xristian ordusu təşkil etsinlər" (2, s.94).

Çar Rusiyanın həmin dövrdə Urmiyadakı konsulu B.Nikitin öz xatirələrində yazıb: "*Rus qoşununda olan nizamsızlıq və anarxiya xristian cəbhəsini təhlükəli vəziyyətə saldı. Çarəsizlikdən 1917-ci il oktyabr ayında bu heyət Tiflisə getdi və dövlət nümayəndələrindən yardım istədi. Bu heyət gəldikdən sonra Qafqaz qoşununun komandanı general Lebedinski dərhal mənə xəbər verdi ki, Urmiyada birləşmiş erməni-aysor silahlı dəstələrinin təşkil edilməsi qərara gəlinib. Əlbəttə ki, müttəfiqlərin hərbi attaşeləri Klonel (polkovnik) Şardini (Chardiyny), kapitan Març (Marche), mayor Steks və Klonel Payek (Piyk) də bu qərarla razılaşdılar*" (7, s.236).

Hadisələrin Urmiyada şahidlərindən olan Urmiyanın ziyalılarından Rəhmətullah Tofiq isə 1917-ci ilin noyabr ayında rus qoşunlarının əksərinin Cənubi Azərbaycandan geri çəkilməsi və ermənilərlə aysorların silahlanıb, xüsusilə Qərb dövlətləri vasitəsilə təşkilatlanmasını belə təsvir edir: "Bu zaman ruslar şəhəri boşaltmışdılar və yalnız az sayda rus şəhərdə qalmışdı. Digər tərəfdən isə Urmiyada yaşayan xristianlar və Marşimonun ciloları (aysorlar - H.S.) rusların getməsini görəndə özlərinin onların himayəsi ilə etdiyi işləri və zülmü xatırlayıb, eyni zamanda Osmanlı qoşununun da gələ biləcəyini düşünüb onların silah-sursatını alıb daha artıq silahlanmağı qarşıya məqsəd qoydular. ABŞ-dan olan mister Şed və (Fransanın) Qızıl Xaç Heyəti də onları təşkilatlandırmaq və osmanlıların gəlişinə mane olmaq üçün hərəkətə keçdilər. Ona görə də ruslardan ucuz qiymətə çox sayda top və silah-sursat alaraq cilolara (aysorlara) və xristianlara (ermənilər nəzərdə tutulur – H.S.) verdilər. Salmasda yaşayan xristianları da silahlandırdılar və Qafqazdan Urmiyaya qaçıb gələn və Daşnaksütyun təşkilatının üzvü olan erməniləri də silahlandırdılar. İndiyə kimi ABŞ-ın xeyriyyəçilik işləri üzrə rəis və ABŞ məktəbinin müdiri olan mister Şed ABŞ dövləti tərəfindən rəsmən konsul təyin edildi. O, İngiltərə dövlətinin də rəsmi olaraq göstərişlərini həyata keçirirdi. Həmçinin bir komitə yaradıldı, orada yaradılan silahlı dəstə və qərara alınan məsələlər müzakirə edilməyə başlandı" (8, s.14). Erməni və aysorlardan ibarət silahlı dəstə yaradılandan sonra açıq şəkildə yerli əhaliyə hücumlara və qırğınlara başlanıldı.

R.Tofiq yaradılan birləşmiş erməni-aysor silahlı dəstənin yerli əhaliyə qarşı qətl və qarət törətmələrini isə belə təsvir edir: "Tədricən ruslar bu əraziləri boşaltdı və yenicə silahlanan xristianlar (erməni və aysorlar - H.S.) şəhər ətrafı və kəndlərdə müsəlmanlara qarşı hücuma keçdi. Müsəlmanlar tərəfdə də Demokrat partiyası yaradıldı. Onlar öz aralarında da, dövlətlə də ixtilafa malik idilər.

Digər tərəfdən də payızın əvvəlindən qıtlıq hiss edilməyə başladı. Belə ki, buğdanın hər on potu səkkiz tümən məbləğindən 50 tümənə qədər yüksəlmişdi" (8, s.14).

Rus qoşununun Güney Azərbaycandan çıxmasından sonra erməni və aysorların silahlanıb onların yerini tutmağa başlamasını İranın Milli Şura Məclisinin kitabxanasının sənəd arxivində arasında 1917-1918-ci illərdə Cənubi Azərbaycanın Qərb bölgəsində yazılmış "Mənim başıma gələn qanlı hadisələr və ya Salmas dünyanı oda çəkən müharibədə" adı ilə yazdığı xatirələrdə naməlum müəllif belə təsvir edir: "Ruslar öz ölkələrinə qayıdana qədər ermənilər və cilolar çiyninə silah götürməyib və şəhərə silahsız çıxırdılar. Ruslar gedəndən sonra onların qalıb və silahlanıb rusların yerini tutacağına heç kəs inanmırdı. Lakin müşahidə edildi ki, ruslar gedəndən sonra erməni və aysorlar əhali ilə kobud davranıb özlərini rusların canişini kimi təqdim etdilər" (6, s.586).

O, birləşmiş erməni-aysorlara silahların verilməsini isə belə təsvir edib: "Ruslar Qərbi Azərbaycandan gedərkən bütün silah və sursatları və əlavə olaraq, 15 ədəd qala uçuran artilleriya və əlli ədəddən çox metralyuz cilolara verildi. Onlara (cilo və erməni – H.S.) verilən 60 min tüfəngin hamısı bir növdən idi və Fransada fabrikdə istehsal olunan 3 gülləli tüfənglər idi. Bu silahlar böyük bir dövlətlə döyüşməyə kifayət edərdi. Həmçinin çox sayda əl qumbaraları gətirilmişdi. Belə ki, hər birinə bir neçəsi çatırdı. Buradan da məlum olurdu ki, onların silahlarını təkcə ruslar deyil, həm də böyük hissəsini ingilislər və fransızlar vermişdilər" (6, s.587).

Birləşmiş erməni-aysor silahlı dəstələrinin təşkilatlandırılmasını və onlara silahların verilməsini İran dövlətinin Urmiyaya kargüzar göndərdiyi Rəhmətulla xan Mötəmidəlvüzarə müşahidə edib və bunu Tehrana göndərdiyi hesabatında belə təsvir edir: "Son vaxtlara qədər və rusların çıxmasından sonra müttəfiq dövlətlər yeni təşkilatlanma başlatdı, İran təbəəsi olan xristianları silahlandırırlar. Onlar aysorlar arasında silah paylayır, hərbi ad verir, onlara maaş kəsirlər. Bu barədə ali dövlətə müfəssəl və ətraflı məlumat çatdırılmışdır" (3, s.28).

Xristian silahlı dəstəsinin təşkilatçısı və azərbaycanlıların qətliamında aparıcı rola malik olan Rusiyanın Urmiyadakı konsulu B.Nikitin öz xatirələrində bu barədə yazırdı: "*Aysor atıcıları 4 batalyon, erməni atıcıları 2 batalyon, 4 dağ topu, 300 atlı, bir birləşmiş batalyon və 1 teleqraf xidməti. Yuxarıda adı çəkilən qoşundan başqa çoxlu sayda aysor piyada qoşunu, qaçaq adlanan erməni, eləcə də Urmiya və Salmasın erməni və aysorları da bu silahlı dəstələrdə iştirak edirdilər. Ali komandanlıq klonel Kuzminə tapşırılmışdı. Onlara 3 fransız zabiti və 30-a qədər kiçik rütbəli zabit kömək edirdi"* (2, s.99). Birləşmiş erməni-aysor silahlı dəstəsi təşkil edildikdən sonra fransız və xüsusilə rus zabitlər, eləcə də polkovnik Kuzminin (Kouzmine) rəhbərliyi ilə onlara təlim keçildi. Beləliklə, ermənilər və aysorlar təşkilatlandırılaraq silahlandırıldı və Güney Azərbaycanın qərb bölgəsində dəhşətli soyqırımı törətməyə hazır vəziyyətə gətirildilər.

## II. Birləşmiş erməni-aysor silahlı dəstələri yarandıqdan sonra qətl-qarətə başlama bəhanələri

Birləşmiş erməni-aysor silahlı dəstələrinin yaradılmasında məqsəd Güney Azərbaycanın qərb bölgəsini işğal edib azərbaycanlıları soyqırımına məruz qoymaqla bu bölgədə erməni-xristian dövləti yaratmaq olduğu üçün silahlı dəstə yaradılan kimi müxtəlif bəhanələrlə kütləvi qırğınlara başlanıldı. Urmiyada hadisələrin şahidi olmuş əczaçı həkim Məxfi Əfşar 2017-ci il dekabrın ilk günlərində silahlandırılan erməni-aysorların və onları himayə edən rusların şəhəri nəzarətə alma cəhdlərini belə təsvir edib: "Bu gün cümə axşamı səfər ayının 15-də (1917-ci il dekabrın 2-də) hər bir məhəllədə pristavxananın (nəzmiyyə - H.S.) təsis edilməsi qərar alındı. Bir neçə polis və rus kazakı da məhəllələrin mühafizəsinə cəlb edildi. Lakin onlar özləri hər növ oğrudan daha çox əhalinin canının və malının düşmənidirlər. Çünki dünən gecə səhərə yaxın həmin saldat və cilolar şəhərin 50-dən çox mənzilini qarət etdilər. Əhali həmin xəbərdən (məhəllələrin rus kazakları və s. tərəfindən mühafizə edilməsi – H.S.) əməlli-başlı sevincək olublar. İnşallah "bu pişiklər əti yeməzlər". Nahardan sonra həmin məhəllələrə qarovul seçilən bir neçə nəfər rus kazakı bazarda bir-biri ilə mübahisə edib, atəş açıblar. Bazar satıcıları da güllədən amanda qalmaq niyyəti ilə atəş yerindən kənara qaçmışlar. Bundan istifadə edən həmin rus kazakları satıcıların yerə dağılan mallarını yığışdırıb talamışlar" (9, s.170).

Hadisələrin şahidi R.Mötəmidəlvüzarə birləşmiş erməni-aysor silahlı dəstələrin yaradılmasından sonra onların ilk hərəkətlərinin belə təsvir edir: "Görünür, Azərbaycanın şimal-qərb sərhəd məntəqələrinin əhalisinin qismətində hər cür zərərlərə giriftar olmaq var imiş. Cilolar yavaş-yavaş əhalinin sahələrinə və mülklərinə soxulub zərər vururlar" (3, s.28).

Məxfi Əfşar 2017-ci il dekabrın II yarısında artıq birləşmiş erməni-aysor silahlı dəstələrinin özbaşınalığını və törətdiyi qətl-qarətlərin kəskinləşdiyini belə təsvir edir: "İğtişaş və qətl-qarət son həddə çatıb. Yenə də yağı cilolar (erməni-aysor silahlı dəstələri – H.S.), düşmənçilik və özbaşınalıq edən saldatlar, xarici konsulluq və dini missionerlərin maliyyə və mənəvi dəstəyi ilə hər növ zülm və maneə törətməkdən qalmırlar. Hökumət məmurlarından kimsə də onların bu əməlinin qarşısını almağa qadir deyildir. Bu gün çərşənbə axşamı rəbiəl-əvvəl ayının 3-də (1917-ci il 17 dekabr) çox sayda cilo dəstələri bir neçə saldatla birlikdə bazara hücum çəkdilər. Onlar həmin günədək salamat qalmış dükanları qarət edib 8 nəfərdən çox əsnafı da öldürdülər. Onların cəsədləri bazarda düşüb qaldı. Çünki kimsə onları dəfn etməyə də qadir deyildir. Təsadüfən bu dəfə ən çox dəllal mağazaları olan Sədr rastası bazarına daha çox xəsarət dəydi. Hadisə belə baş verdi ki, dükanların icarə haqqı ilə əlaqədar cənab Sədr hamını çağırmışdı. Biz də dükanları bir neçə nəfərə tapşırıb onun yanına getmişdik. Qəflətən xəbər gəldi ki, nəyə oturmusunuz, dükanları qarət edirlər. Tələsik rastaya doğru qaçdıq və dəllalların ikisinin yerə düşmüş cəsədini gördük. Talanıb boşaldılmış mağazalar qeyd etdiyim bu kədərli dastanı açıq şəkildə göstərdi. Mən də çarəsiz qalıb evin bütün əşyalarını dükana gətirmişdim ki, onları tədrici satmaqla ailə və öz kiçik uşaqlarımın xərcini təmin edə bilim. Onlar da beləcə talan edildi!"... (9, s.173-174).

1918-ci il dekabrın sonu və yanvarın əvvəllərində birləşmiş erməni-aysor silahlı dəstələrinin təxribat və cinayətlərinə baxmayaraq, azərbaycanlıların onların əlinə bəhanə verməkdən çəkinmələri barədə R.Tofiq yazır: "Rəbiəl-axir ayının sonlarında (1917-ci il dekabrın sonu və 2018-ci il yanvar ayının əvvəllərində), o kəskin soyuqda onlar (birləşmiş erməni-aysor silahlı dəstələri - H.S.) tədricən ajan və jandarmeri qüvvələrinə də hücum edir, bəhanə axtarırdılar ki, savaşıb, şəhərin işini bitirsinlər. Lakin müsəlmanlar ehtiyat edirdilər ki, iş müharibə və savaş mərhələsinə çatmasın. Hərçənd ki, müsəlmanlar tərəfdən də bir qrup hövsələsizlik edir, hökumət və Demokrat Partiyasından istəyirdilər ki, onlara qarşılıq versinlər. Lakin ağılla davranıb, işin aqibətini daha pis olacağını hesab edirdilər" (8, s.17).

Ancaq azərbaycanlıların iradəsindən asılı olmayaraq, onların soyqırımına qərar verilmişdi və bunun üçün plan da mövcud idi. Ona görə də hər keçən gün yaradılan silahlı dəstənin törətdiyi qətl-qarətlər artırdı. R.Mötəmidəlvüzarə kütləvi qırğından bir neçə həftə öncədən dövlət nümayəndəsi kimi hətta erməni və aysorları təşkilatlandıran xarici konsulluqlara nota da göndərildiyini və bunun belə, nəticə vermədiyini hesabatında yazırdı: "Çoxlu sayda cilo silahlandırıldıqdan sonra onların maddi vəziyyətləri yaxşılaşmış, cəmiyyətdəki mövqeləri yüksəlmişdir. Onlar özbaşınalıqlar edir, əhalinin can və mallarına qarşı hərəkətlər etməkdən çəkinmirdilər. Bu vəziyyətlə bağlı yerli hökumət tərəfindən Urmudakı xarici konsulluqlara dəfələrlə etiraz notası verilsə də, kəskin bir nəticə alınmadı. Xarici konsulluqlar yeni təşkilatlanma ilə bağlı öz səfirliklərindən onlara müvafiq göstəriş gəlməməsinə görə üzrxahlıq edirlər. Getdikcə silahlı şəxslərin təsir dairəsi böyüyür və qarət olunmuş camaat təzyiqlərə məruz qalır" (3, s.28-29).

Məxfi Əfşar isə 1918-ci il yanvar ayı və fevralın ilk günlərində yaradılmış silahlı dəstənin Urmiyada meydana gətirdiyi vəziyyəti belə təsvir edir: "Düşmənçilik və qətl-qarət daha həddən aşmışdı. Bu qəddarların zülmündən nə əhalinin evi və ev əşyaları qalmışdı, nə də onların həyatı amanda idi. Keçən ay ərzində müsəlmanlardan 300 nəfər öldürülmüşdür. Nəhayət vilayət əhli əlacsız qalıb yüksək məbləğdə məvacib qarşılığında silahlı cilolardan öz evlərinə mühafizəçi gətirirlər ki, bəlkə bir neçə gün rahat yaşasınlar. Lakin bunlar həm məvacibi alıb, həm də evdə hər nədən xoşları gəldisə oğurlayıb aparırdılar. Belə ki, bizim qonşuluqda məhəllə əhlindən bir nəfər iki nəfər mühafizəçi tutdular. Üçüncü gecə həm öz muzdunu aldılar, həm də evi qarət etdilər. Ev sahibini də o qədər döymüşdülər ki, yatağa düşmüşdü. Həmin biçarə qonşu öz mənzilinin həyətində həmişəyaşıl bitki əkmişdi. Mən öz gözlərimlə gördüm ki, bu namərdlər onu da dartıb yerindən qoparıb apardılar ki, öz

rəisləri Petrosun mənzilini bəzəsinlər. Xülasə, vilayətin vəziyyəti son dərəcə çox pərişan və böhranlıdır. Yoxsa Allah özü biz çarəsizlərə rəhm etməlidir". (9, s.176)

Birləşmiş erməni-aysor silahlı dəstələri hər növ cinayət törətməklə kütləvi soyqırımına bəhanə axtarırdılar. Urmiyada kütləvi soyqırımın başlanmasından bir həftə öncə 1918-ci il fevral ayının ortalarında R.Mötəmidəlvüzarə vəziyyəti belə təsvir edir: "Bu arada 1 nəfər cilo bazarda iki müsəlmanı və bir yəhudini qətlə yetirib. Hökumət bu hadisənin böyüməsinə və davam etməsinə imkan vermədi. Bu hadisədən sonra şənbə günü fevral ayının 15-də bir dəstə aysor silahlısı şəhərin küçələrində insanlara əziyyət verib, onların üst-başını yoxlayıb, üstlərindəki silahları əllərindən alıblar. Bir neçə nəfərdən müəyyən qədər pul da götürülmüşdür. Hətta həmin şəxslər "Yurdşah" məhəlləsində müsəlmanlardan olan bir kürdü, revolverini qadına verməsi bəhanəsi ilə təftiş etmişlər. Bu məsələ müsəlmanları qıcıqlandırmış və onlardan bir dəstə hökumət evinin qarşısına toplaşaraq hökumətdən belə qanunsuz halların qarşını almağı tələb etmişdir" (3, s.28-29).

Birləşmiş erməni-aysor silahlı dəstəsinin özbaşınalığı o həddə çatır ki, 1918-ci il fevralın birinci yarısında Osmanlıdan Güney Azərbaycana sığınmış dəstənin dini lideri B.Marşimon dövlət orqanları və siyasi partiyaları hədələməyə başlayır: "Təsəvvür etməyin ki, ruslar getdi, onların nüfuzu da getdi. Bütün əhali və siyasi partiyalar nəzərə almalıdırlar ki, bizim qoşunumuz ruslardan güclüdür və bunlara hörmət ruslara hörmətdən daha da vacibdi. Əhaliyə tövsiyə etməklə, ümumiyyətlə yazaraq bildiririk ki, bizi siyasi işlər və öz fikirlərindən ürəkaçıqlığı ilə xəbərdar etmək istəməsələr silah gücünə onların əməliyyatından xəbər tutacağıq. Onların siyasi ümuratı bizə aiddir və bizim dəxilimizin olması lazımdır. Onlar bunu qəbul etməlidirlər. Bu məsələni riayət və qəbul etmədikləri təqdirdə problemlə qarşılaşacaq, həyatları təhlükə qarşısına düşəcək". Marşimonun bu kəskin bəyanatı çarəsiz əhalini həddindən artıq təəccübləndirdi. Urmiya və Salmas əhalisinin əllərində isə silah yox idi. Yalnız ruslar öz ölkələrinə gedərkən bir sıra rus əsgərləri çox az sayda əhaliyə gizli şəkildə silah satmışdılar (6, s.588- 589).

Birləşmiş erməni-aysor silahlı dəstələrinin cinayətlərini müşahidə edən dövlət orqanları onların tərki-silah edilməsi məsələsinə göstəriş verirlər. Hadisələrin şahidi olan Əminəşşəri Xoyi bu məsələni belə təsvir edir: "Bu arada, fürsət gözləyən bunlar, Təbriz yerli hakim dairəsinin onların gücünü yüksək qiymətləndirməyib, Xoy və Urmiya hakim dairəsinə göstəriş verdi ki, aysorları və erməniləri tərki-silah etsinlər. Xoy hakim dairəsi Makıdan olduğu üçün dövlətdən əlavə güc və qüdrətə malik idi. Eyni zamanda xristianların sayı Xoyda olduqca az olduğu üçün bu şəhərin hakim dairəsinə qarşı çıxa bilməzdi. Məcburən Xoy hakim dairəsi tərəfindən onlar şəhərin xaricində bir karvansarada topladılıb dövrəyə alınaraq tərki-silah edildilər. Lakin Urmiyada tərki-silaha başlananda onların (erməni və aysorların - H.S.) plan və fitnə-fəsadı üzə çıxdı. Onların qarşısında müqavimət etməyə gücləri olmadığı üçün qəflətən ağır vəziyyətə düşdülər. Çünki yerli hakim dairənin iki yüzə yaxın kazak dəstəsi (yerli əhalidən ibarət) Urmiyada təşkil edilib Kazakxanada yerləşirdi. Az sayda da Qaracadağ atlıları mövcud idi. Bundan artıq heç bir silahlı qüvvə yox idi. Lakin xristianların on-iyirmi min qoşunu (birləşmiş erməni-aysor silahlı dəstə - H.S.) olduğundan qafil idilər. Bu vəziyyətdə tərki-silaha başladılar. Urmiya əhalisi (türklər) yerli hakim dairəyə yardım etdi, bir gündə xristianlardan yüz-iki yüz tüfəng yığıldı. Lakin sonra xristianlar Urmiya hakiminin əmrinə tabe olmayıb müsəlmanlara qarşı müharibəyə başladılar". (11, s.23-24) Beləliklə, birləşmiş erməni-aysor silahlı dəstəsi təşkil edilib və Güney Azərbaycanın qərb bölgəsində azərbaycanlılara qarşı dəhşətli soyqırımı törətdi.

**Nəticə**

Zaman-zaman Azərbaycan ərazilərinə köçüb dağınıq şəkildə yaşayan ermənilər Azərbaycan ərazisində özlərinə xəyali "Böyük Ermənistan" yaratmağın yeganə yolunu yerli əhalini soyqırımına məruz qoymaqda görürdülər. Bunun üçün erməniləri himayə edən Rusiya və bəzi Qərb dövlətləri Güney Azərbaycanın qərb bölgəsində 1917-ci ilin ikinci yarısında yaranan şəraitdən istifadə edib erməniləri və aysorları təşkilatlandırdılar. Silahlı dəstələr şəklində təşkilatlanan birləşmiş erməni-aysor silahlı dəstəsi isə təkcə Cənubi Azərbaycanın qərb bölgəsində 200 minədək azərbaycanlını soyqırımına məruz qoydu.

## ƏDƏBİYYAT


1. Qasımlı M.C. (2004). Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti: III hissə, Bakı: Adiloğlu.
2. Məhərrəmov N. (1995) Daşnaksutyun və Azərbaycanın taleyi. Bakı: Azərbaycan.
3. Məlikzadə T.D. (2010). Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində-soyqırımı: Bakı: Bakı çap evi.
4. Mötəmidəlvüzarə R.X. (2017). Dünyanı yandıran müharibədə: Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi.
5. Sərdariniya S. (2006) Arazın hər iki tayında müsəlmanların soyqırımı: Bakı: Elm.
6. بهکوششعلیطظریورحیمنیکبخت (1390)، تحولاتغربآذربایجانبهروایتاسنادمجلسشورایاسلامی،دورههایسومتاپنجم،تهران:کتابخانهموزهومرکزاسنادمجلسشورایا سلامی.
7. مسیو ب. نیکیتین (2536). خاطرات و سفرنامه کنسول سابق روس در ایران. ترجمه علیمحمد فره وشی، تهران، چاپ دوم ، انتشارات کانون معرفت.
8. رحمت الله توفیق. (1382). تاریخچه ارومیه، یادداشتهایی از سالهای جنگ اول جهانی و آشوب بعد از آن: چاپ اول ، انتشارات شیرازه.
9. مجتبی آزادی (1369). تاریخ قتل عام مسلمانان آذربایجان توسط جلوها: ارومیه: انتشارات حسام الدین چلبی .
10. محمد امین ریاحی (1378). تاریخ خوی: سیر تحولات اجتماعی و فرهنگی شهرهای ایران طی قرون). تهران: انتشارات طرح نو .
11. میرزه امین الشرع خویی (1385). تاریخ تهاجمات و جنایات ارامنه: اسماعیل سیمیتقو و سردار ماکو در آذربایجان، به کوشش علی صدرایی خویی.



## *РЕЗЮМЕ*

***Гасан Сафари***

***Организация объединенных армяно-айсорских вооруженных группировок для массового уничтожения населения Южного Азербайджана в свидетельских заметках***

***Ключевые слова:*** *Урмия, Сальма, армяне, геноцид, миссионерские организации*

В статье рассматривается организация объединенных армяно-айсорских вооруженных группировок, совершивших геноцид азербайджанцев в западном регионе Южного Азербайджана в рамках плана по созданию «Великой Армении».

Заметки и воспоминания местного населения, официальных лиц иранского правительства и консулов, которые стали свидетелями создания объединенных армяно- айсорских вооруженных группировок, показывают, что с начала XX века зарубежные миссионерские организации и представительства России и стран Запада усилили деятельность в направлении организации армян и айсоров в западной части Южного Азербайджана, а после начала Первой мировой войны подняли вопрос создания объединенной армяно- айсорской вооруженной группировки. После октябрьского переворота в России план создания вооруженной группировки был ускорен. Поводом для ускорения реализации плана стал вывод российских войск из Южного Азербайджана. При поддержке консула Никитина, миссионерских организаций и иностранных представительств стран Запада армяне и айсоры, стали организовываться в форме вооруженной группы. В состав вооруженной группы входили в основном армяне, которые недавно переехали в Южный Азербайджан 5000 армян, покинувших армию царской России, а также около 40 000 айсоров из Турции и ранее поселившихся в регионе айсоров.

*SUMMARY*

***Hasan Safary***

***The Organization of the United Armenian-Aysor Weapous Groups with the Purpose of Commiting Genocid in the West Part of Southern Azerbaijan in Witness Notes***

***Keywords:*** *United Armenian-Assyrian armed group, Urmia, Salmas, Armenians, genocide, missionary organizations.*

The article examines the organization of the united Armenian-Aysor armed groups that committed genocide against Azerbaijanis in the western region of South Azerbaijan, within the framework of the plan devised to create “Great Armenia”.

Notes and memoirs of the local population, as well as, officials of the Iranian government and consuls, who witnessed the creation of the united Armenian-Aysor armed groups, show that since the beginning of the 20th century, foreign missionary organizations and representative offices of Russia and Western countries have intensified their activities in the direction of creating the organization of Armenians and Aysors in the western part of South Azerbaijan, and after the outbreak of the First World War, they raised the issue of creating a united Armenian-Aysor armed group.After the October coup in Russia, the plan to create an armed group was accelerated.The reason for accelerating the implementation of the plan was the withdrawal of Russian troops from South Azerbaijan.Being supported by Consul Nikitin, missionary organizations and foreign representatives of Western countries, Armenians and Aysors began to organize themselves in the form of an armed group.The armed group consisted mainly of Armenians who had recently moved to South Azerbaijan with 5,000 Armenians who left the army of Tsarist Russia, as well as about 40,000 Aysors from Turkey and previously settled in the Aysor region.